**UOT 004.9:351** DOI: 10.25045/jpit.v10.i1.04

***Əliquliyev R.M.[1], Ələkbərova İ.Y.[2]***
AMEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı, Azərbaycan
[1]director@iit.science.az, [2]airada.09@gmail.com

# ELEKTRON DÖVLƏTİN FORMALAŞMASINDA SOSİAL KAPİTALIN ROLUNUN ANALİZİ

*Elektron dövlət mühitində vətəndaşın davranışını öyrənən, bilik və bacarığının formalaşması və inkişaf xüsusiyyətlərini təhlil edən nəzəriyyələr genişləndikcə, sosial kapital, insan kapitalı və sosial kredit sistemi kimi konsepsiyalara maraq artmaqdadır. Sosial kapitalın inkişafının stimullaşdırılması və ölçülməsi e-dövlətin formalaşdırılmasında aktual məsələlərdən biri olmaqdadır. Tədqiqatda sosial kapital konsepsiyasında bəzi yanaşmalar araşdırılmış, sosial kapitalın ölçülməsində əsas göstəricilər müəyyənləşdirilmişdir. Sosial kapitalın cəmiyyətdə yaratdığı problemlər analiz olunaraq təsnifatlandırılmış, e-dövlətin formalaşmasında sosial kapitalın rolunun analizi üçün müəyyən təkliflər işlənmişdir.*

***Açar sözlər:*** *sosial kapital, e-dövlət, sosial normalar, etimad, sosial şəbəkə, aktor, donor, resipiyent.*

## Giriş

İnformasiya cəmiyyətinin inkişaf etdiyi müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) genişlənməsi, dünyadakı sosial-siyasi və iqtisadi vəziyyət, informasiya bolluğu, informasiya təhlükəsizliyi ilə əlaqədar problemlər sosial kapitalın qiymətləndirilməsi və ölçülməsi məsələlərini aktuallaşdırmışdır. Sosial kapital konsepsiyası həm ayrı-ayrı sosial qrupların fəaliyyətinin, həm də dövlət təşkilatları ilə cəmiyyət arasında qarşılıqlı əlaqələrin analizində geniş istifadə olunmaqdadır [1]. Bir çox hallarda sosial kapital qrup, kollektiv və təşkilatlarda insanlar arasında münasibətlərin səmərəli təşkil olunmasının keyfiyyət göstəricisi kimi nəzərə alınır [2].

Ayrı-ayrılıqda hər bir təşkilatın, ailənin, hətta virtual sosial şəbəkənin sosial kapitalı mövcuddur. Sosial kapital, kapitalın digər formaları kimi insanların firavan yaşaması, sağlamlığı, maddi rifahı və təhlükəsizliyi üçün vacibdir. Elektron dövlət (e-dövlət) mühitində sosial kapitalın rolunun analizi vətəndaşın iqtisadi durumu və rifahının müəyyən olunması, cəmiyyətdə baş verən hadisələrin qiymətləndirilməsi, yaranan problemlərin səmərəli həlli, sosial kredit balının hesablanması üçün çox əhəmiyyətlidir. Özünün və ərtafındakıların etimadı, nüfuzu, sosial münasibətlərdə stabillik və sosial normalar vətəndaşın həyat fəaliyyətini asanlaşdırır, həm iqtisadi, həm də sosial durumunun yüksəlməsini təmin edir. Yüksək sosial kapital, həmçinin dövlətin idarə olumasında, cinayətkarlığın azalmasında, vətəndaşın emosional durumunun yüksəlməsində vacib şərtdir [1–3].

Bu gün müasir intellektual sistemlər, şəbəkə texnologiyalarının imkanlarından istifadə etməklə vətəndaşın qiymətləndirilməsi ənənəvi olaraq bank sistemlərində, şəxsi uçot vərəqələrində və müxtəlif arxivlərdə toplanan statistik göstəricilər əsasında aparılır. Bu tip informasiya əməliyyatları vətəndaşların cəmiyyətdə çəkisi, qanun qarşısında vəzifəsi, sosial normalara necə əməl etməsi və etimadı ilə əlaqədar vəziyyətin öyrənilməsi üçün çox əhəmiyyətlidir. İnformasiya və biliyin cəmiyyətdə rolu artdıqca, qeyri-maddi sistemin formalaşması, işçilərin yaradıcı potensialından maksimum istifadə, sosial tərəfdaşlığın yeni formalarının yaranması və s. kimi sosial hadisələrə daha çox əhəmiyyət verilir. Bununla əlaqədar vətəndaşların sosial-iqtisadi vəziyyəti, mövcud problemləri və davranışlarının analizi çox aktualdır. Elmi-nəzəri planda bu tendensiya özünü onda doğruldur ki, münasibətlərdəki birtərəfli maksimalist və fərdiyyəçilik konsepsiyaları sosioloji və iqtisadi yanaşmalar ənənəsinin sintezindən yaranan daha ağıllı nəzəriyyələrlə əvəz olunurlar.

Tədqiqatın aktuallığı e-dövlət mühitində vətəndaşların sosial və iqtisadi təhlükəsizliyinin təmin olunması, sosial münasibətlərdə vətəndaş həmrəyliyi, əməkdaşlıq, qarşılıqlı yardım və etimadın yüksəldilməsi yollarının müəyyən edilməsi sosial kapitalın spesifik xüsusiyyətlərinin və inkişaf mexanizminin araşdırılmasına tələbatla bağlıdır.

Tədqiqatın məqsədi e-dövlət mühitində sosial kapitalın elmi-metodoloji əsaslarını araşdırmaq və müasir informasiya cəmiyyətində, e-demoqrafiya çərçivəsində insanları davranışlarına, sosial fəaliyyətlərinə və s. əlamətlərə görə qiymətləndirmək üçün sosial kapitalın rolunu müəyyənləşdirməkdir.

**Sosial kapital konsepsiyasında bəzi yanaşmalar**

Sosial kapital termini ilk dəfə 1916-cı ildə Lida Hanifan (*ing. Lyda Judson Hanifan*) tərəfindən istifadə edilsə də, yalnız XX əsrin sonunda yeni elm sahəsi kimi geniş analiz olunmağa başlamışdır [3]. “Kapital” termini iqtisadiyyata aiddir. Lakin bu gün bu termindən müxtəlif sahələrdə istifadə olunmaqdadır. Bu səbəbdən hal-hazırda kapitalın müxtəlif formaları vardır. Məsələn, insan kapitalı (*ing.human capital*), təbii kapital (*ing.natural capital*), intellektual kapital (*ing.intellectual capital*), mədəni kapital (*ing.cultural capital*), maliyyə kapitalı (*ing. financial capital*), fiziki kapital (*ing.physical capital*), sosial kapital (*ing.social capital*) və s. Kapital qoyulmuş məqsədə çatmaq üçün istifadəyə istiqamətlənmiş müəyyən mülkiyyətə malikolma formasıdır. Bu səbəbdən, bir sosial qrupun disfunksiyası, bu qrupda sosial kapitalın olmaması kimi təsvir edilə bilər. Sosial kapital konsepsiyası sosiologiyada, politologiyada, psixologiyada, iqtisadiyyatda və informasiya texnologiyaları sahəsində araşdırılmaqdadır. Onun dövlətin sosial-iqtisadi inkişafında rolu, ümumiyyətlə, cəmiyyətə təsiri hər zaman mütəxəssislərin diqqətində olmuşdur.

Sosial kapitalın izahında müxtəlif yanaşmalar vardır. Məsələn, bildirilir ki, sosial kapital sosial münasibətlərə aid olan və məqsədyönlü fəaliyyətin məhsuldarlığını artırmağa yönəlmiş resursdur. O, iqtisadi və mədəni kapitalın xüsusiyyətlərini özündə saxlayan etimad və əməkdaşlığa əsaslanan kapitaldır [4, 5].

İlk dəfə fransız sosioloqu, filosof, etnoloq, siyasi publisist Pyer Budye (*ing.Pierre Bourdieu*) tərəfindən keçən əsrin 80-ci illərində sosial kapitalın mahiyyəti və xüsusiyyətləri, cəmiyyətdə rolu araşdırılmışdır. O, sosial kapitalı sosial əlaqələrin təsviri kimi vermiş və göstərmişdir ki, sosial kapital sosial-iqtisadi durumu yaxşılaşdırmaq və daha çox gəlir əldə etmək üçün lazımdır.

Budye “Kapitalın formaları” (*ing. The Forms of Capital*) konsepsiyasında kapitalın əsasən üç formada olduğunu bildirir: maliyyə kapitalı, sosial kapital və mədəni kapital. Bu konsepsiyada sosial kapital dayanıqlı şəbəkəyə (*ing. durable networks*) malik olmaq şərti ilə yalnız qrup şəklində əldə oluna bilən real və potensial resurs kimi verilir. Fərdin malik olduğu sosial kapitalın həcmi qrupdakı əlaqələrin sıxlığından və kapital mübadiləsindən asılıdır. Sosial kapital xüsusi bir fərdin və ya hətta onunla əlaqəli digər fərdlərin malik olduqları iqtisadi və mədəni kapitaldan asılı olmaya bilməz və öz növbəsində fərdin artıq malik olduğu kapitala təsir göstərir [6]. Budye yazır: “Sosial kapital qohumluq əlaqələrinə və sosial qruplardakı münasibətlərə əsaslanan resursdur... Sosial kapital qrup üzvlərinə üstünlük və mənfəət verir, cəmiyyətdəki həmrəyliyin əsasını təşkil edir” [7].

Budye sosial kapitalda mədəni kapitalın çox böyük önəm daşıdığını xüsusi vurğulayır və bildirir ki, məktəb mədəni kapitalın yaranmasında və yayılmasında əsas faktordur. Mədəni kapital intellekt deməkdir, həmçinin bu intellekti göstərmək və sosial statusun daha da yaxşılaşdırılmasında istifadə bacarığıdır. Ailələr təhsilə böyük pul ayırırlar, çünki onlar üçün mədəni və insan kapitalı maliyyə kapitalından daha üstündür. Əldə olunacaq təhsil və bilik şəxsin cəmiyyətdə sosial ranqını müəyyən edir. Yüksək təhsil alanlar bu təhsili əldəetmə imkanına malik olmayanlar üzərində üstünlük təşkil edir [6–8]. Sonrakı tədqiqatlarda sübut edilmişdir ki, valideynlərin iqtisadi, sosial və mədəni kapitalı uşaqların tədrisdə müvəffəqiyyət qazanmalarına, bilik əldə etmələrinə təsir edən əsas amillərdir. Valideynlərin mədəni kapitalı (iqtisadi və sosial kapital nəzərə alınmır), həm də uşaqların orta məktəbdə akademik təhsil seçiminə təsir göstərir [9].

Çikaqo Universitetinin professoru, ABŞ sosiologiya assosiasiyasının prezidenti Ceyms Koulman (*ing. James Samuel Coleman*) qeyd edir ki, sosial kapital insanlar arasında onların əməyini yüngülləşdirə biləcək münasibətlərdən yaranır. Fiziki və insan kapitalı kimi sosial kapital da istehsal fəaliyyətinin nəticəsinə öz töhfəsini verir. Odur ki, etibarlı nüfuza və böyük etimad potensialına malik insanlardan təşkil olunmuş cəmiyyət bu keyfiyyətlərə malik olmayan cəmiyyətlə müqayisədə daha böyük uğurlar əldə edə bilər. Koulman sosial kapitalın yalnız sosial normalara riayət etməklə və təhsillə əldə oluna biləcəyini bildirir. O, yazır: "Sosial kapital uşaqların tərbiyəsində sosial normaların nəzərə alınmasıdır. Sosial kapitalın əsasını münasibətləri, dəyərləri və etimadı generasiya edən resurslara güclü təsiri olan təhsil təşkil edir" [10].

Koulmana görə, cəmiyyətə qoyulan öhdəliklər çoxaldıqca, sosial kapitalın çəkisi də artmış olacaqdır. Belə ki, sosial kapital insanların fəaliyyətinə təkan verən münasibətlər çoxluğudur. Bu münasibətlərdə hər bir vətəndaşın müvafiq sanksiya və tədbirlər tətbiq edilmədən öz vəzifəsini yerinə yetirəcəyi nəzərdə tutulmuşdur. Koulman kapitalın 3 növdə olduğunu bildirir: iqtisadi kapital, insan kapitalı, sosial kapital və  qeyd edir ki, sosial kapital məqsədli şəkildə insanlar arasında münasibətlərdə formalaşmışdır, qarşılıqlı etimadın və qarşılıqlı köməyin potensialıdır. Gözləntilər və öhdəliklər sosial mühitin etibarlılığından, sosial strukturun informasiya kanalından və sosial normalardan yaranan sanksiyalarla müşayiət edilən informasiyanı ötürmə imkanından asılıdır [10, 11].

Koulman qeyd edir ki, informasiya sosial kapitalda ən vacib parametrdir və sosial münasibətlər əsasında analiz olunur. Sosial kapital mübadiləsi prosesində aktorların motivasiyasında nəzərə çarpacaq qədər fərq mövcuddur. Aktorlardan biri resipiyent, digəri isə donordur. Resipiyent sosial kapital resursunu əldə etməyə çalışandır. Donor isə bu resursu resipiyentlər üçün əlyetərli edəndir. Lakin donorun sosial kapital resursunu başqaları ilə paylaşması üçün səbəb olmalıdır. Məsələn, borcun qaytarılmayacağı riski varsa, o zaman donorun verəcəyi müqabilində daha çox mənfəət əldə etmək istəyi olması labüddür. Yəni, donor resipiyentə istədiyi qədər borc verir, müqabilində isə əksər hallarda ondan borcun faizlə geri qaytarılmasını tələb edir. Burada borc dedikdə, sosial xidmətlər, tələb olunan qiymətli informasiya, sərf edilən vaxt və s. nəzərdə tutulur. Koulman digər araşdırmaçılardan fərqli olaraq, tədqiqatlarında informasiya resursuna xüsusi yer ayırır və qeyd edir ki, informasiya sosial kapitalda vacib resursdur və sosial münasibətlər vasitəsilə aktivləşir [12].

Göründüyü kimi, sosial kapital mübadiləsində əsas 3 göstərici vardır (şəkil 1):

- Sosial kapital sahibi. Öz sosial kapitalını (sosial əlaqələri, əməkdaşlıq və qohumluq münasibətlərini) başqasına təqdim edən donor.
- Sosial kapitala ehtiyacı olan. Başqası tərəfindən təklif olunmuş sosial kapitaldan istifadə etməklə şəxsi rifahını yüksəltməyə çalışan resipiyent.
- Sosial kapital resursu. Donorun resipiyentə təklif etdiyi sosial əlaqələr.




Şəkil 1. Aktorlar arasında sosial kapital mübadiləsi

Koulman yanaşmasında sosial kapitala vətəndaşın şəxsi resursu kimi baxılır. Bu konsepsiyanın köməyilə müxtəlif davranış sistemlərində təşkilati və informasiya resurslarının digər resurslarla birləşməsini və hansı nəticələrin əldə olunacağını göstərmək olar.

ABŞ-ın Miçiqan Universitetinin professoru, sosioloq Ueyn Beyker (*ing. Wayne E. Baker*) qeyd edir ki, sosial kapital və insan kapitalı bir-birlərinə təsir edirlər. Belə ki, insanın biliyi,

bacarığı və əmək haqqı fiziki və sosial kapitaldan asılıdır. Yalnız insan kapitalına qoyulan sərmayələr digər kapital növlərinin təsirini tənzimləməyə imkan verir. Məsələn, daha yüksək təhsilli yeni işçi, daha təcrübəli və daha çox sosial əlaqələrə malik bir işçi ilə bərabər əmək haqqı ala bilər. İqtisadi kapital bank hesablarında olursa, insan kapitalı isə insanların beynidirsə, sosial kapital qarşılıqlı əlaqələrin sosial strukturunu nəzərdə tutur [13].

Sosial şəbəkələrin analizi (*ing. Social Network Analysis, SNA*) sosial kapitalın xüsusiyyətlərinin öyrənilməsində geniş istifadə olunmaqdadır [14]. SNA konsepsiyası qraflar nəzəriyyəsinin riyazi əsaslarından və İKT sahəsində son nailiyyətlərdən istifadə edərək sosiologiya sahəsində nəzəri tədqiqatlar əsasında sosial strukturların və münasibətlərin vizuallaşdırılması və araşdırılması üçün unikal metodologiyalar təklif edir [15].

İnsan kapitalı və sosial kapital arasındakı fərq şəkil 2-dəki qraf vasitəsilə göstərilmişdir. Qrafdakı təpələr insan kapitalına malik şəxslər (aktorlar), onlar arasındakı əlaqələr isə sosial kapitalın realizə olunmasıdır.




Şəkil 2. Aktorlar arasında sosial kapital mübadiləsi

Koulman nəzəriyyəsinə görə, deyə bilərik ki, aktorlar arasındakı əlaqələr (linklər) aktorun digər aktorla paylaşdığı informasiyadır, yəni sosial kapitaldır. Qraflar nəzəriyyəsindən istifadə etməklə sosial kapitalı aşağıdakı kimi ifadə etmək olar [12–14]:

$$\mathrm{SC}=\{(U, V) / V \in U(G)\}$$

burada, $U$ – bir qrup daxilində aktorlar çoxluğu, $V$ – bir qrup daxilindəki aktorlar arasında əlaqə, $U(G)$ – bütün qruplardakı ümumi aktorlar çoxluğudur. Koulmanın yanaşmasında bir çox göstəricilər verilmədiyi üçün düsturdan əldə olunacaq nəticənin dəqiqliyi şübhə doğurur. Sosial kapital hesablanarkən yalnız bir qrup deyil, fərdin daxil olduğu bütün qruplar nəzərə alınmalıdır. Məsələn, hər hansı $p$ qrupundakı aktorlar çoxluğu aşağıdakı kimi olacaqdır:

$$U(G_p)=\{U_1^p, U_2^p, \ldots, U_n^p\},\ p=1,\ldots,m;$$

$n$ – $G_p$ qrupundakı aktorların sayıdır. Bütün qruplardakı aktorlar çoxluğunu aşağıdakı kimi göstərmək olar:

$$U(G)=\bigcup_{p=1}^{k} U(G_p^k),\ k=1,\ldots,c;$$

burada $c$ – qrupların sayıdır. Sosial şəbəkəni daha dərindən analiz etsək, birtərəfli və ikitərəfli əlaqələri müəyyən etmək olar ki, bu da sosial kapital konsepsiyasında çox əhəmiyyətlidir. Biz qrup daxilindəki münasibətlərə sosial şəbəkə platformasından baxırıqsa, burada həll olunacaq məsələlər aşağıdakılardan ibarət olmalıdır [16]:

- sosial şəbəkəyə edilən təsir mənbələri və səbəbləri müəyyənləşdirilməlidir;
- aktiv və passiv vəziyyətdə olan aktorların sayı bilinməlidir;
- aktorlar arasında münasibətlər dəqiqləşdirilməlidir.

Subyektlərin konkret sosial strukturlardan əldə etdikləri resurs aktiv aktorlar arasındakı münasibətlərin dəyişməsindən yaranır və aktorların öz maraqları üçün istifadə olunur. Sosial

kapital konsepsiyası fərdi aktor səviyyəsində nəticələri hesablamaq və eyni zamanda strukturu mürəkkəbləşdirmədən mikro və makrokeçid etməyə imkan verir.

Harvard Universitetinin professoru Robert Patnem (*ing. Robert David Putnam*) qeyd edir ki, sosial kapital cəmiyyət daxilindəki fərdlərin bir-birləri ilə qarşılıqlı münasibətindən asılıdır və sosial kapital iqtisadi inkişafın və rifahın əsas faktorlarından olub, insanlar arasında etimada əsaslanır. Patnem yazır: “Sosial kapital tarixin dərinliklərinə gedən sosial qarşılıqlı təsir ənənəsidir, insanlar arasında etimad və qarşılıqlı kömək normalarını təmin edir, müxtəlif könüllü birliklərin geniş yayılması və cəmiyyət qarşısındakı problemləri həll etmək üçün vətəndaşların siyasətə cəlb olunmasıdır” [17, 18].

Patnem qeyd edir ki, cəmiyyətin sosial problemlərinin həlli üçün ilk növbədə bu cəmiyyəti təşkil edən qrupların sosial kapitalı müəyyən olunmalıdır. O, sosial kapitalın üçfaktorlu modelini təklif etmiş və göstərmişdir ki, sosial kapital sosial normalar, sosial əlaqələr və qarşılıqlı etimaddan ibarətdir [18].

*Sosial normalar* – cəmiyyət üzvlərinin davranışını tənzimləyən qeyri-rəsmi münasibətlərdir. Sosial normalara insanların başqalarının nə etdiyi, nə edəcəyi və nə fikirləşdiyi haqqında baza biliklərini təşkil edən mədəni məhsul kimi baxmaq olar [19]. Sosial normalara yaxınlaşma, real normaları göstərmək yolu ilə yanlış təsəvvürlərin düzəldilməsinə istiqamətlənmiş müdaxilə olub, həm cəmiyyət, həm də ayrı-ayrı fərdlər üçün faydalıdır. Belə ki, bu konsepsiya insanların problemli davranışının azaldılmasına və sağlam davranışın yüksəlməsinə səbəb olur [20].

*Sosial əlaqələr* – iki daha çox fərd arasında güclü, sıx, dərin və ya tanışlıq xarakterli münasibətlər olub, müəyyən zaman intervalında sosial, mədəni və digər təsirlərin kontekstində dəyişir [21]. Kontekst ailə və ya qohumluq əlaqələrindən, dostluq, işgüzar və s. münasibətlərdən asılı olaraq fərqlənə bilər. Sosial əlaqələr qanun, adət-ənənə, qarşılıqlı razılaşma ilə tənzimlənir və sosial qrupun və ümumilikdə cəmiyyətin əsasını təşkil edir. Sosial əlaqələr şəxsi və rəsmi olur. Sosial əlaqələr riyazi sosiologiyanın predmetini təşkil etməklə güclü, zəif və ya mövcud olmayan ola bilər. Mövcud olmayan sosial əlaqə dedikdə, informasiya mübadiləsi aparmayan fərdlər nəzərdə tutulur. Məsələn, bir-birləri ilə hər səhər qarşılaşarkən yalnız salamlaşan qonşular və s. [22].

*Etimad* hər hansı şəxs, təşkilat və ya qrup tərəfindən əlverişli və ya neytral fəaliyyətin gözlənilməsidir. Etimad qrupdakı fərdlər arasında səmimiyyətə və düzgünlüyə əsaslanan qarşılıqlı münasibətlərin xüsusiyyətini əks etdirir. R.Patnem etimadı sosial kapitalın mənbəyi adlandırır [23]. Etimad qrupdakı fərdlər arasında səmimiyyətə və düzgünlüyə əsaslanan qarşılıqlı münasibətlərin xüsusiyyətini əks etdirir. O, bütün sosial institutların (tədqiqatların) əsasını təşkil edir [24]. Yüksək etimad təcrübəyə, biliyə və etimad obyekti haqqında fikrə əsasən müəyyən edilir. Etimad insanların fəaliyyətində minimum əmək və zaman sərf etməklə daha çox mənfəət əldə etmək imkanı yaradır. Digər tərəfdən, etimad sosial stabilliyin təmin olunmasında əsas amildir [25].

Etimoloji olaraq, etimad latın dilində “ürəyini qoymaq” (*lat. credo*) mənasında işlənilir. Buradan da belə bir fikrə gəlmək olar ki, etimad insanın malik olduğu fundamental, çox vacib psixoloji vəziyyətlərindən biridir. İnsanların başqaları ilə münasibət qurub söhbət etmələri müəyyən etimadın yaranmasından xəbər verir. Tədqiqatlardan məlum olmuşdur ki, etimad cəmiyyətdə insanı əhatə edən bütün sahələrə təsir göstərir və bunlara şəxsi münasibətlər, ailə, iş, ticarət, biznes, səhiyyə, təhsil, sığorta, kredit və bank aiddir [26, 27].

Etimad həm insanın illərlə toplanan öz təcrübəsi və biliyi nəticəsində, həm də başqalarının təcrübəsi və münasibətlərindən əldə olunur. Vətəndaş şəxsən tanımadığı insana da etimad göstərə bilər və ya əksinə. Bu ilk növbədə həmin insanın vəzifəsindən və cəmiyyətdəki mövqeyindən asılı olur. Məsələn, başqalarının mövqeyindən asılı olaraq vətəndaşın hər hansı bir dövlət xadiminə etimadı azala bilər. Digər tərəfdən, insan təyyarəyə və ya gəmiyə minərkən onu idarə edən kapitanı şəxsən tanımır, lakin həyatını ona etibar etmək məcburiyyətindədir. Ümumiyyətlə, cəmiyyətdə etimad göstərmək bir çox hallarda məcburi xarakter alır. Biz istəsək də, istəməsək də, həyatımız boyu aldığımız məhsula görə istehsalçıya, xəstəliyimizin müalicəsinə görə həkimə, keyfiyyətli təhsil almaq ümidi ilə müəllimə və s. tanımadığımız insanlara etimad göstərmək

məcburiyyətindəyik. Lakin onlar haqqında mənfi rəy yaranırsa, bu etimadsızlığa səbəb olur və başqa mütəxəssislərə müraciət etmək məcburiyyəti yaradır. Bu baxımdan etimadsızlığa insanin özünü və rifahini qorumaq fəaliyyəti kimi baxmaq olar. Etimadın tərkib hissələri aşağıdakılardır:

- İnformasiya: obyekt haqqında bilik, ətrafındakıların ona münasibəti;
- Hissetmə: obyektin yaratdığı emosiya və əhval-ruhiyə;
- Davranış: şəxsi təcrübə, əməkdaşlıq və ya informasiya mübadiləsi.

Deməli, hər bir insan bilik, təcrübə və emosiyaya əsaslanaraq cəmiyyəti iki hissəyə ayırır: etimad göstərdiyi və etimad göstərmədiyi. Aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, etimadın ölçülməsində bilik və müqayisəli analiz əsas təşkil edir.

Stenford Universitetinin "Demokratiya, İnkişaf və Qanunun Aliliyi Mərkəzi"nin (*ing. Center on Democracy, Development and the Rule of Law at Stanford University*) direktoru, yapon əsilli amerikalı filosof və siyasi iqtisadçı Frensis Fukuyama (*ing. Francis Fukuyama*) sosial kapitalı etimadla bir tutur və onun ölçülməsində etimad radiusunun əsas göstərici olduğunu qeyd edir. O, sosial kapitalın izahını belə verir: "Sosial kapital iki və ya daha çox şəxs arasında əməkdaşlığa imkan yaradan qarşılıqlı təsirin qeyri-formal normasıdır. Sosial kapitalı yalnız hər hansı standart normalar təmsil etmir. Bu normalar qrupdakı əməkdaşlığa xidmət etməlidir". Fukuyama qeyd edir ki, vicdanlı, dürüst, səmimi və ədalətli olmaq sosial kapitalın yüksəlməsinə imkan verən etik qaydalardır. O, sosial kapitalı müasir cəmiyyətin mədəni komponenti adlandırır [28].

Sosial kapitalın tədqiqatı ilə, həmçinin A.Zeliqman, R.Koyz, R.S.Bert, C.Cakobs, M.Vuolkok, Q.Saymon, C.B.Patuşev, N.N.Lebedeva, B.B.Radayev kimi tanınmış alimlər məşğul olmuşlar. Onlar tərəfindən işlənən nəzəriyyə və konsepsiyalarda sosial kapitalın sosial normalardan, təhsil, bilik və etimaddan asılı olması təsdiq olunur. Həmçinin, göstərilir ki, sosial kapital sosial şəbəkə, ümumi maraq və qarşılıqlı yardım kimi mexanizmlərin funksionallığı nəticəsində təşkil olunur. Tədqiqatlar göstərir ki, iqtisadi və insan kapitalından fərqli olaraq, sosial kapital ayrı-ayrılıqda bir fərdin atributu deyildir və onun strukturunun əsasını sosial əlaqələr şəbəkəsi, davranış qaydalarına riayət, etimad və nüfuzun təşkili müəyyən edir. Sosial kapital, kapitalın digər formaları kimi, insanların firavan yaşaması, sağlamlığı, maddi rifahı və təhlükəsizliyi üçün vacibdir.

**Sosial kapitalın yaratdığı problemlər**

Sosial kapital yalnız müsbət xüsusiyyətlərlə xarakterizə olunmur. Bir sıra tədqiqatlarda qeyd edilir ki, sosial kapital tərkibcə 3 faktorun birləşməsindən yaranır və bu faktorlar ayrı-ayrılıqda müəyyən problemlərin yaranmasına səbəb ola bilər. Onlar aşağıdakılardır [29]:

- Şəxsi sosial kapital. Yəni, şəxsin doğulduğu gündən malik olduğu kapitaldır: ailə, etnik mənsubiyyəti, milliyyəti və s.;
- Təşkilatdaxili sosial kapital. Şəxsin daxil olduğu təşkilat və ya kollektiv nəzərdə tutulur;
- İctimai sosial kapital. Buraya beynəlxalq cəmiyyət, sosial normalar və digər qeyri-hökumət təşkilatları daxildir.

ABŞ Milli Elmlər Akademiyasının professoru, 1999-cu ildə Amerika sosioloji assosiasiyasının prezidenti olmuş Alejandro Portes sosial kapitalın ziyanlarını xarakterizə edərək qeyd edir ki, bir çox hallarda etnik birlik və qohumluq əlaqələri qrupdakı müəyyən fərdlərə şəxsi sosial kapital vasitəsilə mənfəət əldə etməyə imkan versə də, digərlərinə ziyan vurur. Belə ki, müəyyən tip qruplarda ayrı-ayrı fərdlər başqalarının sosial kapitalından istifadə etməklə, əsassız olaraq heç bir biliyə və təcrübəyə söykənməyən yüksək etimad əldə edir və bu da öz növbəsində maliyyə əməliyyatlarına, iqtisadiyyata neqativ təsir göstərir. Qohum, dost və etnik birliyin sahibkar qarşısına qoyduğu tələblər nəticəsində yüksək vəzifələri yalnız şəxsi sosial kapitala malik vətəndaşların tutması sahibkarın gəlirinin və nüfuzunun aşağı düşməsinə səbəb olur, cəmiyyətdə narazılıq yaranır. Bu səbəbdən, bəzi şirkətlər şəxsi sosial kapitalı inkar edərək dəqiq qaydalar və ciddi nəzarəti üstün tuturlar [30].

Vətəndaşın nüfuzu sosial münasibətlərlə sıx bağlıdır. İnsanın hər hansı sosial qrupa daxil olması və bu qrupdakıların bir-birlərinə etimadı sosial kapitalın əsasını təşkil edir. Sosial kapitaldan səmərəli istifadə isə sosial durumun yüksəlməsinə xidmət göstərir. Deməli, vətəndaşın nüfuzu onun sosial durumuna təsir edən əsas faktorlardandır və sosial münasibətlər hər hansı səbəbdən pozularsa, bu, sosial duruma ciddi təsir göstərə bilər. Sosial kapitalın qrup üzvləri arasında paylanması bəzi hallarda məcburi xarakter daşıyır. Belə ki, vətəndaşın davranışı sosial kapitalın tələbləri ilə bilavasitə əlaqəlidir. Yəni, şəxs istəməsə belə, sosial normalar və qrup üzvlərinin tələbi ilə qarşı tərəfin mənfəət əldə etməsi üçün sosial kapitalını paylaşmalı olur. Bu səbəbdən yüksək maliyyə kapitalına və nüfuza malik şəxslər qohum, dost, qonşu və bir sıra sosial kapitala ehtiyacı olan, əsasən resipiyentlərdən təşkil olunan sosial qruplardan uzaqlaşmağa çalışırlar [28, 30].

Eyni sosial təbəqədən və müxtəlif statusa malik üzvlərdən ibarət qruplara aid sosial kapital öhdəlikli sosial kapital (*ing. bonding social capital*) adlanır. Bu əlaqələr daha güclüdür və ailə üzvləri, qonşular, yaxın dostlardan ibarət qruplarda yaranır. Bu qruplardan çıxmaq çox çətindir və müəyyən itkilər (mənəvi və maddi) tələb edir.

Körpülü sosial kapital (*ing. bridging social capital*) iqtisadi vəziyyət və siyasi hakimiyyətinə görə eyni statusda olan insanlar arasında horizontal əlaqələrdən yaranır. Əlaqəli sosial kapital (*ing. linking social capital*) rəsmi təşkilatları təmsil edən təsir gücünə malik insanlarla sosial vəziyyəti çox aşağı olanlar arasında vertikal əlaqələrdir [31]. Bu tip sosial kapital istisna və təcrid problemlərini həll etdiyinə görə, cəmiyyətin ümumi inkişafı üçün vacibdir. O, cəmiyyətdəki ayrıseçkiliyin, resursların bərabər paylanmaması probleminin həllinə yönəlmişdir.

Bəzən yüksək sosial kapitala malik qrup daxilində sosial nəzarət o qədər yüksək olur ki, insanlar fəaliyyətlərində tam azad ola bilmirlər. Nəticədə ayrı-ayrı qrup üzvləri tərəfindən üsyanlar baş verir. Məsələn, ailədaxili konflikt nəticəsində uşaq evdən qaçır və ya yüksək maaşa və əlverişli iş şəraitinə baxmayaraq, vətəndaş işdən ayrılır.

Şirkət və təşkilatlarda da yüksək sosial kapital bəzən ziyanlı ola bilir. Belə ki, qrup daxilindəki sıx əlaqələr ümumi kollektivin fikrinin düzgünlüyünə əminlik yaradır və kənardan edilən təklif və tövsiyələr nəzərə alınmır, innovasiyaya səbəb olacaq kənar təcrübələr öyrənilmir. Bu baxımdan təşkilatdaxili sosial kapital şirkətin fəaliyyətinə ciddi mane ola bilər. Problemin həllində onlayn münasibətlər vacib faktordur. Belə ki, İnternet üzərindən bütün sosial əlaqələrdən və resurslardan istifadə edərək cəmiyyətin və mütəxəssislərin məsələyə münasibəti öyrənilir, onlayn əməkdaşlıq biznes və texnoloji innovasiyaları genişləndirir və şirkətlərin fəaliyyətinə müsbət təsir edir. E-dövlət mühitində sosial kapitalın və vətəndaş cəmiyyətinin qurulmasında ictimai təşkilatların xüsusi yeri vardır. İctimai sosial kapital ictimai təşkilatın cəmiyyətdə tanınması, qoyduğu məqsədə çatması və sosial problemləri həll etmək üçün vacib resursdur. Burada sosial manipulyasiya vasitələrindən istifadə, sosial kapitalın yalnız müəyyən fərdlər üçün əlyetərli olması problemləri aktualdır.

Deyilənləri nəzərə alaraq, sosial kapitalın mənfi xüsusiyyətlərini aşağıdakı kimi vermək olar:

- qrupdakı daxili nəzarət bu qrupu yeni gələnlər üçün qapalı edir;
- qrup hər hansı qrup üzvünün ayrılıqda nailiyyət əldə etməsinə mane olur;
- bəzən yüksək sosial kapital maliyyə əməliyyatlarına, iqtisadiyyata neqativ təsir göstərir;
- fərdin qrup daxilində öhdəlikləri vardır və onun qrupu tərk etməsi müəyyən itki vermədən mümkün olmur.

E-dövlətin verdiyi imkanlar sosial kapitalla əlaqədar problemlərin qismən də olsa, həllinə şərait yaradır. Bu imkanlara əhalinin genişzolaqlı İnternetlə təmin olunması, İKT-dən istifadə qabiliyyətinin yüksəldilməsi nəticəsində özünəxidmət imkanlarının dəstəklənməsi və genişlənməsi, ictimai tədbirlərdə və ölkənin idarə olunmasında aktiv iştirakı və s. daxildir.

**Onlayn münasibətlərin sosial kapitala təsiri**

Vətəndaşların sosial-iqtisadi həyatında özünəməxsus yer tutan İnternet müasir dövrümüzdə böyük həcmdə verilənlərin yalnız saxlanması, emalı və ötürülməsi üçün istifadə olunmur, o, həm

də informasiya mübadiləsi üçün əhəmiyyətlidir ki, bu da müxtəlif sosial şəbəkələrin yaranmasında, sosial qrupların təşkilatlanmasında və əməkdaşlığın genişlənməsində mühüm rol oynayır. Tədqiqat imkanlarının genişlənməsinə şərait yaradan İnternet cəmiyyətdə sosial kapitalın təsirinin müəyyən olunmasında da çox əhəmiyyətlidir.

E-dövlət mühitində sosial kapitalın əsas komponenti kimi İnternetin genişlənməsi və sosial medianın inkişafı ilə əlaqədar virtual sosial kapital nəzərə alınmalıdır. Belə ki, İnternet üzərindən sosial şəbəkələrin və müxtəlif maraqlara malik virtual qrupların fəaliyyəti sosial kapitala təsirsiz ötüşə bilməz. İnternet üzərindən onlayn əlaqələr vətəndaşın və ayrı-ayrı qruplarda sosial kapitalın artmasına şərait yaradır. Həmçinin, e-dövlət mühitində vacib iqtisadi və siyasi qərarların qəbulunda şəffaflıq və açıqlıq dövlət təşkilatlarının fəaliyyətində səmərəliliyin, vətəndaşlarda dövlətə olan etimad və inamın artırılmasına səbəb olur. İnternetin və sosial şəbəkələrin sosial kapitala təsiri tam öyrənilməsə də, İnternetin xüsusiyyətlərini, insanların sosial şəbəkələrdə davranışlarını və sosial medianın imkanlarını nəzərə alaraq deyə bilərik ki:

- İnternet sosial kapitalı dəyişir. O, oxşar marağa və ideologiyaya malik insanların bir-birlərini tapması, maraq dairəsi ətrafında yeni qrupların yaradılması və informasiya mübadiləsi üçün vasitələr təqdim edir.
- İnternet sosial kapitalı artırır. İnternet sosial əlaqələri möhkəmləndirir, mobilləşdirir və yeni sosial münasibətlərin yaranmasına yardım edir. İnternet bilik səviyyəsini artırmaq üçün çoxlu informasiya təqdim edir. Virtual məkanda sosial əlaqələrin zaman və məkandan asılılığı problemi aradan qalxmış olur. Sosial əlaqələrin sayı artır və sıxlaşır: çoxlu sayda dostları olanlar daha çox əhəmiyyətli informasiya əldə edə bilir. İnsanlar nəinki yeni onlayn münasibətlər yaradır, onlar həm də bu münasibətlərin idxalını həyata keçirilər. Belə onlayn cəmiyyətlərin fəaliyyəti nəticəsində virtual sosial kapital yaranır [32].
- İnternet sosial kapitalı azaldır. İnsanlar sosial kapitalı əvəz edən resursi İnternetdə əldə etmək imkanına malik olduqları üçün sosial kapitallarının genişləndirilməsində maraqlı olmurlar. Putnem elmi məqalələrində İnternetin sosial kapital üçün dağıdıcı olması təhlükəsindən yazır və bildirir ki, ən yaxşı halda İnternet insanların real sosial kapitalını virtual sosial kapitalla əvəz edir [33].
- İnternet sosial kapitalı əlyetər edir. Onlayn münasibətlər informativliyi artırır, kollektiv etimadı yüksəldir, əməkdaşlığı inkişaf etdirir.
- İnternet insan və maliyyə kapitalının artmasına təkan verir. Onlayn münasibətlərdən istifadə etməklə vətəndaş öz sosial statusunu yaxşılaşdıra bilir. Məsələn, vətəndaş yüksək gəlirli iş axtarırsa və maliyyə kapitalını yaxşılaşdırmaq istəyirsə, onlayn əlaqələrdən istifadə edə bilər. Bu halda insan kapitalı ilə yanaşı onlayn əlaqələrin keyfiyyəti və sayı əldə olunacaq nəticəyə təsir göstərəcəkdir.

E-dövlətin imkanları sosial kapitaldan istifadə etmədən də vətəndaşa sosial münasibətlər qurmaq, informasiya mübadiləsi aparmaq və mənfəət əldə etmək imkanı verir. Onlayn münasibətlər tövsiyə sistemləri, e-poçt, şəkil kataloqları, axtarış və s. kimi texnologiyalar ilə dəstəklənə bilər. Onlayn şəbəkələrlə dəstəklənən cəmiyyətlərin (Torontoda «Netville», Bleksburq elektron kənd) analizi sübut etmişdir ki, onlayn rejimdə qurulan sosial əlaqələr daha güclü və davamlıdır [34].

Onlayn münasibətlər genişləndikcə, sosial kapital vətəndaşlardan şəxsi məlumatların, müəllif hüquqlarının qorunması, uşaqların informasiya təhlükəsizliyinin təmin olunması kimi sosial-cavabdehlik öhdəliyi tələb edir. Yəni, əvvəllər sosial kapitalda etimad və nüfuz əsas sayılırdısa, e-dövlət mühitində sosial normalar və bilik də sosial kapitalın əsasını təşkil edən göstəricilərə daxildir.

Sosial kapitalın analizində nəzərdə tutulan göstəricilər İnternet xidmətlərinin genişləndiyi müasir dövrdə yetərli deyildir. Bu səbəbdən e-dövlət mühitində sosial kapitalı ölçərkən İnternetin analizi metodlarına aid olan semantik şəbəkə analizi, hiperistinadların analizi, “web-mining”, “text-mining” və s. yanaşmalardan istifadə daha yaxşı nəticə əldə etməyə imkan verəcəkdir.

## Sosial kapitala təsir edən faktorlar

Sosial kapital sosial strukturların funksiyasına aid olduğu üçün onun indikatorlarına sosial şəbəkələrin keyfiyyəti və bu sosial şəbəkələr vasitəsilə əldə olunan mənfəət daxildir. Sosial kapitalın ölçülməsində uğurlu nəticə əldə etmək üçün kəmiyyət xarakterli verilənlərin yüksək dəqiqliyə malik olması vacibdir. Kəmiyyət xarakterli verilənlər dedikdə, statistik verilənlərin analizi, reprezentativ sorğu nəzərdə tutulur. Sosial kapitalın keyfiyyət metodu ilə ölçülməsində əsasən müsahibələrdən, ekspertlərin rəylərindən istifadə nəzərdə tutulur. Məsələnin çətinliyi ondadır ki, sosial kapitala təsir edən faktorlar özləri də bu kapitalın təsiri altında dəyişirlər.

Sosial kapitala təsir edən əsas faktorlar şəkil 3-də göstərilmişdir.




Şəkil 3. Sosial kapitala təsir edən faktorlar

Şəkildən göründüyü kimi, məsələnin optimal həlli üçün aşağıdakı şərtlər nəzərə alınmalıdır:

1. *Qrupdakı münasibətlər (sosial şəbəkə) analiz olunmalıdır.* Sosial kapital cəmiyyəti təşkil edən qruplardakı ayrı-ayrı fərdlər arasında münasibətlərdən asılıdır və bu münasibətlərin hədəfi lazımi resursların – biliyin və informasiyanın əldə olunmasına yönəlmişdir. Sosial kapital təşkilat daxilində və təşkilatdan kənarda, ailə daxilində və ailədən kənarda və s. şəkillərdə mövcuddur. Sosial kapital qrupdakı münasibətlərin sayı və tipi ilə, bu münasibətləri müəyyən edən qəbul edilmiş normalar ilə (etimad və qarşılıqlı yardım) xarakterizə olunur.

2. *Qrup üzvlərindən hər birinin insan kapitalı hesablanmalıdır.* Sosial kapital iqtisadi inkişafa və əməkdaşlığa təsir edən əsas faktorlardandır. O, e-dövlət mühitində vətəndaş cəmiyyətinin səmərəli fəaliyyət göstərməsi üçün vacibdir və stabil liberal demokratiyanın əsas şərtlərindəndir. Lakin sosial kapitalla vətəndaş cəmiyyəti arasında əlaqəni dəqiq müəyyən etmək çətindir. Məsələnin həlli üçün sosial kapitala malik hər bir qrupun və bu qrup üzvlərinin bütün xüsusiyyətləri nəzərə alınmalıdır. İlk növbədə, qrup üzvlərinin hər birinin insan kapitalı müəyyənləşdirilməlidir.

3. *Qrup üzvlərindən hər birinin maliyyə kapitalı hesablanmalıdır.* Sosial kapital maliyyə, fiziki və insan kapitalı kimi komponentlərə daxildir. Sosial kapitalın əldə edilməsi həm iqtisadi, həm də mədəni resursların balanslaşdırılmış bir şəkildə yatırılmasını tələb edir. Yəni, sosial kapital ilk növbədə maliyyə kapitalı hesabına çoxalır və sosial kapitalın əldə olunması investisiya tələb edir. Maliyyə kapitalı ilə müqayisədə sosial kapital daha az şəffaflıq və daha çox qeyri-müəyyənliklə xarakterizə olunur. Məsələn, sosial kapitala aid əməliyyatlar qeyri-müəyyən öhdəliklər, qeyri-səlis müddətlər və qarşılıqlı gözləntilərin pozulması ilə təsvir edilə bilər. Lakin sosial kapital daha aydın və anlaşılan olsaydı, o, bazar münasibətlərinə aid olardı.

4. *Qrup üzvlərinin ictimai fəaliyyəti analiz olunmalıdır.* E-dövlət mühitində vətəndaşın siyasi partiyalara münasibəti, e-dövlətin imkanlarından istifadə etməklə dövlət səviyyəsində keçirilən sorğularda, seçkilərdə iştirakı və qərarların qəbulunda aktivliyi sosial kapitalın analizində önəmli şərtlərdən ola bilər.

5. *Ölkədəki iqtisadi inkişaf və siyasi vəziyyət analiz olunmalıdır.* Sosial kapital müasir cəmiyyətlərin mədəni tərkibini təşkil edir. Dövlətdəki sosial-iqtisadi və siyasi vəziyyət, etnik və dini xüsusiyyətlər, ailə dəyərləri sosial kapitala təsir etməkdədir. İqtisadi vəziyyətdən və siyasi münasibətlərdən fərqli olaraq, sosial kapital dövlət siyasətinə uyğun asanlıqla yaradıla və ya dəyişdirilə bilməz. Lakin iqtisadi inkişaf modellərindən istifadə etməklə sosial kapitalın yüksəlməsinə nail olmaq mümkündür.

## Nəticə

Araşdırmalardan məlum olur ki, sosial kapital konsepsiyası dövlət orqanları və özəl şirkətlər tərəfindən siyasi və iqtisadi sahələrdə mənfəət əldə etmək məqsədilə müxtəlif tədqiqatlarda istifadə olunmaqdadır. Onun cəmiyyətdə rolu, əhəmiyyəti və perspektivləri haqqında sosiologiya, iqtisadiyyat, siyasət və informasiya texnologiyaları sahəsində çoxlu sayda elmi məqalələr və kitablar mövcuddur. Lakin sosial kapitalın mahiyyətinin açılışına aid yanaşmalardakı müxtəlif baxışlar və tədqiqatlarda ümumi metodologiyanın olmaması onun haqqında ümumi fikir söyləməyi çətinləşdirir.

Tədqiqatlar sübut etdi ki, sosial kapitalı analiz etmədən cəmiyyətdəki problemləri, qruplaşmaların xüsusiyyətlərini, vətəndaşın e-dövlətdəki mövqeyini və rolunu müəyyən etmək mümkün deyil. E-dövlətin genişləndiyi bir dövrdə cəmiyyətdə yaranan sosial bərabərsizlik irqi, milli, dini fərqdən və ya dövlət tərəfindən tətbiq olunan xüsusi qaydalardan yaranmır, vətəndaşın etimad və nüfuzundan, bilik bazasından və sosial kapitaldan asılıdır. Sosial kapital özündə müxtəlif elmi istiqamətləri birləşdirdiyinə və mürəkkəb tərkibə malik olduğuna görə, onun ölçülməsində istifadə olunan metodlar və informasiya mənbələri məqsəddən asılı olaraq müəyyənləşdirilməlidir. Sosial kapital qeyri-material resurs olsa da, iqtisadiyyata, insan kapitalına, ictimai rifaha və digər sahələrə təsir edən əsas faktordur. Əsasən də e-dövlət mühitində vətəndaşların sosial-iqtisadi fəaliyyəti sosial kapitaldan çox asılıdır: maliyyə durumu, təhsili, səhhəti və şəxsi təhlükəsizliyi ilk növbədə sosial kapitalla bağlıdır və sosial kapitalı ölçməklə ölkədəki sosial-iqtisadi vəziyyəti, korrupsiya hallarını, vətəndaşların dövlət orqanlarına, idarəedici təşkilatlara, kommunal sahələrə, tibb və təhsil müəssisələrinə etimadını müəyyən etmək olar.

## Minnətdarlıq

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir **– Qrant № EİF-BGM-4-RFTF-1/2017-21/8/1**

## Ədəbiyyat

1. Zhang W., Abitbol A. The Role of Public Relations in Social Capital // Online Journal of Communication and Media Technologies, 2016, vol.6, issue 6. http://ecommons.udayton.edu/cmm_fac_pub/44.
2. Буркинский Б.В., Горячук В.Ф. Социальный капитал: сущность, источники и структура, оценка // Экономика Украины, 2013, №1(606), стр.67–81.
3. Татарко А.Н. Социальный капитал как фактор отношения к деньгам // Психологический журнал, 2012, том 33, №3, с.96–105.
4. Häuberer J. Social Capital Theory: Towards a Methodological Foundation, VS Verlag für Sozialwissenschaften, 2011, pp.1–330.
5. Putnam R.D. Social Capital: Measurement and Consequences // Canadian Journal of Policy Research, 2001, vol.2. no.1. pp.41–51
6. Bourdieu P. The forms of capital. Handbook of Theory and Research for the Sociology of Education (NY., Greenwood), 1986, pp.241–258.

7. Bourdieu P., Coleman J.S. Social theory for a changing society. Westview Press, 1991, 389 p.
8. Bourdieu P., Sapiro G., McHale B. The New Capital: Introduction to a Japanese Reading of State Nobility // National Literatures/Social Spaces, 1991, vol.12, no.4, pp.643–653.
9. Mollegaard S., Meier Jæger M. The effect of grandparents' economic, cultural, and social capital on grandchildren's educational success // Research in Social Stratification and Mobility, 2015, vol.42, pp.11–19.
10. Coleman J. Social capital in the creation of human capital // American Journal of Sociology, 1988, no.94, pp.95–120.
11. Coleman J. Equality and Achievement in Education, Westview Press, University of Michigan, 1990, 340 p.
12. Coleman J. Foundations of Social Theory. Cambridge, Belknap Press, 1994, 302 p.
13. Baker W. E. Achieving Success Through Social Capital. Jossey-Bass, 2000, 239 p.
14. Borgatti S.P., Foster P.C. The Network Paradigm in Organizational Research: A Review and Typology // Journal of Management, 2003, no.29 (6), pp.991–1013.
15. Wasserman S., Faust K. Social Network Analysis: Methods and Applications. Cambridge University Press, 1994, 825 p.
16. Алакбарова И.Я. О некоторых подходах к анализу информационного влияния пользователей в социальных сетях // Информационное общество, №3, 2012, стр. 31–38.
17. Putnam R.D. Social Capital: Measurement and Consequences // Canadian Journal of Policy Research, 2001, vol.2, pp.41–51.
18. Putnam R.D. Democracies in Flux: The Evolution of Social Capital in Contemporary Society, Oxford University Press, 2002, 528 p.
19. Lapinski M.K., Rimal R.N. An explication of social norms // Communication Theory, 2005, no.15 (2), pp.127–147.
20. Berkowitz A.D. An overview of the social norms approach, 2005, online: http://citeseerx.ist.psu.edu/viewdoc/download?doi=10.1.1.595.9147&rep=rep1&type=pdf
21. Rapoport A. Contributions to the Theory of Random and Biased Nets // Bulletin of Mathematical Biophysics, 1957, no.19 (4), pp.257–277.
22. Memic H. Testing the strength of weak ties theory in small educational social networking websites / Proceedings of the 31st International Conference on Information Technology Interfaces. Dubrovnik, June 22–25, 2009, pp.273–278.
23. Putnam R.D., Leonardi R., Nanetti R.Y., Making democracy work: civic traditions in modern Italy, Princeton University Press, 1993, 258 p.
24. Golbeck J., Parsia B., Hendler J. Trust Networks on the Semantic Web / Proceedings of the 7 th International Workshop, Cooperative Information Agents, Helsinki, August 27–29, 2003, pp.238–249.
25. Глушко И.В. Социальное доверие в контексте модернизации общества // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики, 2012, №5, с.24–27.
26. Белянин А.В., Зинченко В.П. Доверие в экономике и общественной жизни, Москва: Фонд «Либеральная миссия», 2010, 164 с.
27. Əliquliyev R.M., Ələkbərova İ.Y. Elektron dövlət mühitində vətəndaşların sosial krediti sisteminin yaradılmasının konseptual əsasları // İnformasiya cəmiyyəti problemləri, 2018, №2, s.3–15.
28. Fukuyama F. Social Capital and Civil Society // Proceedings of the International Monetary Fund Conference on Second Generation Reforms, Washington, November 8–9, 1999, 18 p.
29. Белкин В.Н., Белкина Н.А., Антонова О.А. Стимулирование развития социального капитала предприятия // Вестник ЧелГУ, Экономические науки, 2016, №2 (384), с.102–114.
30. Portes A. Downsides of social capital // Proceedings of the National Academy of Sciences, 2014, vol.111, no.52, pp.18407–18408.

31. Madeleine L. Bonding and Bridging Social Capital: Reflections from Belfast // Sociology, 2004, vol.38, no.5, pp.927–944.
32. Sum Sh., Mathews M.R., Pourghasem M., Hughes İ. Internet Technology and Social Capital:How the Internet Affects Seniors' Social Capital and Wellbeing // Computer-Mediated Communication, 2008, no.14, pp.202–220.
33. Abdul S.S. Impact of Internet Use on Social Capital: Testing Putnam's Theory of Time Displacement in Urban Pakistan // Social Media in Society, 2018, vol.7, no.1, pp.456–468.
34. Hampton K.N., Wellman B. Netville Online and Offline // American Behavioral Scientist, 1999, vol.43, no.3, pp.475–492.

**УДК 004.9:351**
**Алгулиев Расим М.[1], Алекперова Ирада Я.[2]**
Институт Информационных Технологий НАНА, Баку, Азербайджан
[1]director@iit.science.az, [2]airada.09@gmail.com

**Анализ роли социального капитала в формировании электронного государства**

С развитием теорий, изучающих поведение граждан, особенности развития и формирования знаний и навыков в среде электронного правительства, расширяются интересы к таким концепциям, как социальный капитал, человеческий капитал и система социального кредита. Стимулирование развития и измерение социального капитала являются одними из актуальных вопросов формирования электронного государства. В исследовании были изучены некоторые подходы к концепции социального капитала и определены ключевые показатели в ее измерении. Были проанализированы и классифицированы проблемы, созданные социальным капиталом в обществе, разработаны определенные предложения по анализу роли социального капитала в формировании электронного государства.
***Ключевые слова:*** *социальный капитал, электронное государство, социальные нормы, доверие, социальная сеть, актор, донор, реципиент.*

**Rasim M. Alguliyev[1] , Irada Y. Alakbarova[2]**
Institute of Information Technology of ANAS, Baku, Azerbaijan
[1]director@iit.science.az, [2]airada.09@gmail.com

**Analysis of the role of social capital in e-government formation**

With the development of theories on the study of the citizens' behavior and the features of development and formation of knowledge and skills in the e-government environment, are expanding the interests in the concepts as social capital, human capital and the system of social credit. Stimulating development and measuring social capital is one of the topical issues in e-government formation. This study explores some approaches to the concept of social capital and identifies the key indicators in measuring social capital. The problems posed by social capital in society are analyzed and classified, and certain proposals are developed to analyze the role of social capital in e-government formation.
***Keywords:*** *social capital, e-government, social norms, trust, social network, actor, donor, recipient.*